Ədalət 2019.- 23 may.- S.4.

# ŞƏKİ: YAŞI 3000 İLİ KEÇƏN CAVAN BİR ŞƏHƏR

**Yay fəslinə az qalır. Şəkiyə həm respublika daxilindən, həm də xarici ölkələrdən turist səyahətlərinin daha da artacağı şübhəsizdir. Əslində Şəki elə bir məkandır ki, burada il boyu turist gözlənilir və gələnlərin də sayı ildən-ilə artır. Bu səbəbdən də Şəki respublikamızın ən böyük turizm mərkəzlərindən birinə çevrilir. Şəkinin qədimliyi, tarixi və mədəni abidələri ilə yanaşı, təbiət gözəllikləri, müasir şəhər düzəni və infrastruktur üstünlükləri də turistləri özünə cəlb etməkdə, xoş anlar yaşatmaqdadır.**

Təcrübəli dövlət məmuru Elxan Usubov həm də ziyalı bir şəxsdir. Onunla hər bir söhbət olduqca maraqlı alınır. Şəki Şəhər İcra Hakimiyyətinin başçısı E.Usubov deyir ki, Şəkinin turizm potensialının artmasının başlıca səbəblərindən biri






də iqtisadi yüksəliş və Prezidentin bu sahəyə xüsusi qayğı və diqqətidir. Bu mənada elə istənilən regionda aparılan işlərə diqqət yetirib nəticələrə baxdıqda real vəziyyət və perspektiv daha aydın görünür. Şəki rayonunda da belədir. Son illərin göstəriciləri Şəki şəhərinin yüksək səviyyədə müasirləşməsi öz müqayisələri ilə qazanılan uğurları bir daha təsdiqləyir. Bu haqda bizim çox söhbətlərimiz olub. Yəni bütün hallarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müstəsna qayğı və diqqəti, Dövlət Proqramlarının uğurlu icrası əsas gətirilməklə böyük sevinclər bəxş edir. Şəki şəhərində 2019-cu ilin birinci rübünə yekun vurularkən bütün bunlar barədə geniş söhbət getmişdir. Eyni zamanda ötən müddət ərzində görülən işlər və qarşıda duran vəzifələrdən danışılmışdır .

İclasda məruzə ilə çıxış edən Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov demişdir:

- Aprelin 30-da cənab Prezidentimiz İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin I rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. İclasda çıxış edən cənab Prezidentimiz demişdir: ". Bu ilin birinci rübündə əldə edilmiş sosial və iqtisadi nəticələr göstərir ki, biz düzgün yoldayıq, islahatlara alternativ yoxdur. Son illər ərzində aparılan islahatlar nəticəsində ölkəmiz inkişaf edib. Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır".

E.Usubov sonra rayonda görülən işlərdən ətraflı danışaraq demişdir:

- 2019-cu ilin I rübündə rayonumuzda ilkin hesablamalara görə faktiki qiymətlərlə 79 milyon 368 min manatlıq məhsul buraxılmışdır. Buraxılmış məhsulun 9 faizi dövlət, 91 faizi qeyri dövlət mülkiyyətinin payına düşür. 2019-cu ildə faktiki qiymətlərlə məhsul buraxılışı 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 130 faiz təşkil edir. Adambaşına faktiki qiymətlərlə 408 manatlıq məhsul buraxılmışdır. 2019 -cu ilin I rübündə Şəki rayonunda əmtəə dövriyyəsinin ümumi həcmi 122 milyon 196 min manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,3 faiz çoxdur. Hazırda rayonumuzda 21 sənaye müəssisəsi fəaliyyət göstərir ki, bunların da 9-u kiçik müəssisədir. 2019-cu ilin I rübündə bütün maliyyə mənbələri hesabına iqtisadiyyatın inkişafına yönəldilən investisiyanın həcmi 25 milyon 366 min manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 171 faiz təşkil edir. Əsas kapitala yönəldilmiş investisiyanın 90 faizi dövlət mülkiyyətinin , 10 faizi qeyri- dövlət mülkiyyətinin payına düşür.2019-cu ilin I rübündə əsas kapitala yönəldilmiş investisiyanın 98,2 faizi tikinti quraşdırma işlərinə sərf edilmişdir ki,bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 174 faiz təşil edir.

Regionlarda işsizliyin azaldılması, yeni iş yerlərinin yaradılması üçün cənab Prezidentimizin tapşırığına əsasən bir sıra tədbirlər görülmüş, 2019- cu ilin üç ayı ərzində rayonumuzda 606 yeni iş yeri açılmışdır ki, bunun da hamısı daimi iş yerləridir. 01 oktyabr 2003-cü il tarixdən 01 mart 2019-cu il tarixədək bütövlükdə rayonumuzda 24560 yeni iş yeri açılmışdır ki, bunun də 96 faizi daimi iş yerləridir.

Nazirlər Kabinetinin 2019-cu ilin I rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında çıxış edən cənab Prezidentimiz qeyd etmişdir ki, ilin əvvəlindən çox böyük həcmli sosial paket təqdim edilmiş, müvafiq fərmanlar imzalanmış, minimum əməkhaqqı və minimum pensiyalar, ,tələbələrin təqaüdü, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə məcburi köçkünlərə verilən ödənişlər artmışdır.

Bəhs olunan dövrdə Şəkidə əhalinin sosial müdafiəsinin daha etibarlı şəkildə təmin olunması istiqamətində bir sıra işlər görülmüşdür. 2019-cu ilin birinci rübündə Şəki rayonu üzrə aztəminatlı ailələrə və sosial müdafiəyə ehtiyacı olan vətəndaşlara 15,2 milyon manat vəsaitin verilməsi təmin edilmiş, 2019-cu ilin birinci rübündə 14,8 milyon manat vəsait 24 774 nəfər pensiyaçıya çatdırılmışdır. 2019-cu ilin birinci rübündə orta aylıq pensiya 201 manat təşkil etmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 9 faiz çoxdur. 2019-cu ilin birinci rübü ərzində sosial müavinətlərin ödənişi üçün 2.2 milyon manat vəsait 8285 nəfər vətəndaşa çatdırılmışdır.

Dövlət Sosial Müdafiə Fondunun Şəki Şəhər Şöbəsi 2019-cu ilin I rübündə 24815 nəfər əmək pensiyaçısına xidmət göstərmişdir. Şəki




Rayon Məşğulluq Mərkəzinə 2019-cu ilin birinci rübündə 1204 nəfər işaxtaran vətəndaş müraciət etmiş, 663 nəfər işlə təmin edilmişdir. 2019-cu ilin birinci rübündə mərkəzdə qeydiyyatda olan işaxtaran və işsiz vətəndaşlardan 616 nəfər " Dost Mərkəzi " tərəfindən ictimai işlərə göndərilmişdir.

Nazirlər Kabinetinin 2019-cu ilin I rübünün yekunlarına və qarşıda duran məsələlərə həsr olunan yığıncağında çıxış edən cənab Prezidentimiz qeyd etmişdir ki, kənd təsərrüfatı hər bir ölkənin uğurlu iqtisadi inkişafını təmin edən əsas sahədir. Ötən illərdə olduğu kimi, bu ilin I rübündə də məhsul istehsalının artırılması, kənd təsərrüfatında özəl bölmənin daha da genişləndirilməsi diqqət mərkəzində saxlanmış, kənd təsərrüfatının bir çox sahələrinin - taxılçılıq, heyvandarlıq, tütünçülük və baramaçılığın dinamik inkişafı təmin edilmişdir.

Aqrar sektorun ən gəlirli sahələrindən biri olan tütünçülüyün inkişafı üçün rayonda böyük ənənə və təcrübə var. Rayonda tütünçülüyün inkişaf etdirilməsi, əhalinin məşğulluğunun təmin olunması, istehsalçıların marağının müdafiə olunması Şəki Şəhər İcra Hakimiyyəti tərəfindən daim nəzarətdə saxlanır və onlara mütəmadi yardım göstərilir. Bu il rayonda 1030 hektar sahədə tütün əkini planlaşdırılır.

**Tarixən ipəkçilik diyarı kimi tanınan Şəkidə son əsrlərdə əhalinin əsas məşğuliyyət sahələrindən biri də baramaçılıq olmuşdur. Nazirlər Kabinetinin 2019-cu ilin I rübünün yekunlarına və qarşıda duran məsələlərə həsr olunan yığıncağında çıxış edən cənab Prezidentimiz bu il də barama istehsalının artırılmasının diqqət mərkəzində saxlanmasının vacib olduğunu bildirmişdir. Bu il rayonda 72 ton barama istehsalı nəzərdə tutulmuşdur.**

**(ardı növbəti sayımızda)**

**Məzahir ƏHMƏDZADƏ**